Regionların sosial-iqtisadi inkişafı

Qəbələ Azərbaycanın ikinci turizm mərkəzidir

Dövlətimizin başçısı İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasdakı yekun nitqində turizmin inkişafından danışarkən dağlar qoynunda ünvanlanan, özü də dağlar kimi gözəl, səfalı, füsunkar Qəbələyə belə yüksək dəyər vermişdir. "Turizmin inkişafı üçün bir layihəni də biz dövlət investisiya proqramına salmışıq. Bu da Şəki-Qəbələ dəmir yolunun tikintisidir. Beləliklə, Qəbələ şəhərinə dəmir yolunun çəkilişi təmin ediləcək. Bu gün Qəbələ Bakıdan sonra Azərbaycanda ikinci turizm mərkəzidir. Əlbəttə ki, dəmir yolunun Qəbələyə çatdırılması turistlərin axınının daha da sürətləndirəcək".

Qədim tarixi köklərə söykənən, özünün tarix, mədəniyyət, incəsənət abidələri ilə nəinki ölkəmizdə, həmçinin dünyada tanınan Qəbələnin bugünkü inkişafı ulu öndər Heydər Əliyevin uzaqgörən sosial, iqtisadi, siyasi strategiyasının uğurlu icrasının bəhrəsidir. Hələ sovetlər birliyi dövründə də bu rayonda turizmə meyil, istiqamət olub. Buradakı turist bazasında keçmiş sovetlər birliyinin ayrı-ayrı ünvanlarından gəlib dincələnlərin mən də şahidiyəm. Lakin sonralar bura öz təyinatı üzrə istifadədən kənarda qalmışdır. Ulu öndər Heydər Əliyevin respublikaya rəhbərliyə ikinci dəfə qayıdışından sonra bu sahəyə yeni nəfəs verilmiş, turizmin inkişafı yolunda yaşıl işıq yandırılmışdır. Qədim tarixli, dərin köklü Qəbələnin bu gün dünya şöhrətli Qəbələ kimi tanınması məhz Azərbaycanın müstəqillik yoluna inamla qədəm qoyduğu gündən başlanıb. Bu illərdə onun əsrarəngiz təbiətinə də, bərəkətli torpaqlarına da min illiklərin sorağını gətirən abidə və mədəniyyət ocaqlarına da yeni həyat verildi, nəfəs gətirildi və nəhayət, qədim Qəbələ müasir Qəbələ kimi dünyaya çıxdı, dünyanı özünə gətirdi. Qəbələnin tarixi keçmişi də təbiəti qədər zəngin, heyranedicidir.

—Doğru qeyd etdiniz ki, artıq dünyaya tanış olan Qəbələ, indi xarici ölkələrdən gələn turistləri öz qoynuna alır, onları Qəbələnin uzaq keçmişindən başlayıb bu gününə kimi olan yolun yolçusu edir. Qəbələ həm də bu tanışlıqla indi ayrı-ayrı müxtəlif beynəlxalq əhəmiyyətli tədbirlərin ev sahibi kimi də fəaliyyətdədir, - deyən rayondakı Turizm İnformasiya Mərkəzinin direktoru Anar Məhərrəmovla həmsöhbət olduq. O, sözünə davam edib dedi:

—Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rayonumuzun respublikamızın paytaxtı Bakıdan sonra ikinci turizm mərkəzi olduğunu qeyd etməsi, hamımızın məsuliyyətini daha da artırır, mövcud imkanlardan daha səmərəli istifadə etməyə, rayonumuzda turizm üçün olan bütün potensialı ortaya qoymağa şövq edir. Qəbələ turizminin mövcud vəziyyətindən danışmazdan öncə onun zəngin və qədim tarixli bazası haqqında məlumat turistlər üçün maraqlı olar.

Qəbələnin tarixi keçmişi də təbiəti

qədər zəngin olub. Bu yurdun adı çəkiləndə ilk öncə qədim Qafqaz Albaniyasının 900 illik bir dövrdə (eramızdan əvvəl IV əsrdən eramızın V əsrinədək) paytaxtı olmuş, qədim Qəbələ şəhəri və onun bu günə gəlib çatmış möhtəşəm qala divarları xatırlanır. Rayon mərkəzindən 20 kilometr cənubi-qərbdə, indiki Çuxur Qəbələ kəndinin şimal-şərq hissəsində Corlu və Qara çaylarının suayrıcında yerləşən qədim Qəbələ şəhəri öz möhtəşəmliyi, mühüm siyasi, iqtisadi və ticarət mərkəzi kimi dünyanın Babil, Troya, Pompey, Karfagen kimi qədim şəhərləri ilə müqayisə olunur.

Qəbələ rayonu Böyük Qafqazın Cənub yamacında Azərbaycanın Şimal-qərbində, Şəki-Zaqatala iqtisadi bölgəsinin şərqində yerləşir. Rayonun ərazisi şimaldan Böyük Qafqazın Çaldaş silsiləsi ilə Dağıstan Muxtar Respublikası (Rusiya Federasiyası ilə), Şahdağ silsiləsi ilə Qusar rayonu, Şimal-şərqdən Salavat aşırımı istiqamətində Quba rayonu ilə Şərqdən Göyçay çayının vadisi boyunca İsmayıllı rayonu, Cənubdan Axarbaxar alçaqöndağlıq silsiləsi boyunca (Surxay xan dağları) Göyçay və Ağdaş rayonları ilə, qərbdən Turyançay (Tikanlıçay) vadisi boyunca Şəki və Oğuz rayonları ilə həmsərhəddir. Qəbələ ölkəmizin turizmin inkişafı üçün əlverişli imkanlara malik bölgələrdən biridir. Rayonun turizm potensialına nəzər salmaq üçün aşağıdakıları nəzərdən keçirmək yerinə düşər. Relyefi çox müxtəlifdir. Belə ki, rayonun şimal hissəsi Baş Qafqaz silsiləsinin cənub yamacına, mərkəzi hissəsi Alazan-Həftəran vadisinə, cənub hissəsi Acınohur ön dağlığına daxildir. Respublikanın ən yüksək zirvəsi, yəni hündürlüyü 4466 metr olan Bazardüzü Qəbələdə yerləşir. İqlimi aşağı hissədə qışı quraq keçən mülayim isti, yüksək dağlıqda isə soyuq və rütubətlidir. Dəmiraparançay, Türyançay və onların qolları Tikanlıçay, Bum çay, Vəndam və sair kimi çayları, Mucux, Yeddi gözəl və digər adda şəlalələri var. 60 min hektar sahə meşə ilə örtülüdür və meşələr əsasən fıstıq, palıd, vələs, ardıc ağaclarından ibarətdir. Mineral, qeyri-mineral bulaqları, Çuxur Qəbələ kəndində yerləşən Qədim Qəbələ Şəhərinin qalıqları, rayonun müxtəlif yerlərində daş Kurqanlar (e.ə. III-I minillik), Həzrə kəndindəki türbələr kompleksi (XIV-XV əsrlər), Nic qəsəbəsində Nekropol (antik dövr) və sair bu kimi abidələri də çox maraqlıdır. Heydər Əliyev Mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi və başqaları öz zəngin materialları ilə diqqəti cəlb edir. Qəbələnin hansı daşını tərpətsən, burada hara ayaq bassan, orada minillik tarixin izləri ilə rastlaşarsan. Nazirlər Kabinetinin qərarı ilə 93 tarixi mədəniyyət abidəsi dövlət mühafizəsinə götürülmüşdür. Onlardan biri Qədim Qəbələ şəhərinin qalıqları dünya əhəmiyyətli arxeoloji abidələr siyahısına aiddir.

Həmsöhbətim bildirdi ki, belə faktların sayını artırmaq da olar. Yəni Qəbələ turizm üçün çox əlverişli məkanda yerləşir və iqlimi də, təbiəti də ürəkləri oxşayan bir diyardır və onun turistləri düşündürən, heyrətləndirən, ürəklərini riqqətə gətirən çox maraqlı, zəngin bazası da var və bu bazanı qoruyub saxlayan, daha da artıran insanları da, müvafiq qurumları da. Yeri gəlmişkən qeyd edək ki, bu gün Qəbələdə turizm kimi çox əlverişli bir sahənin daha da inkişaf etdirilməsinə Qəbələ Rayon İcra Hakimiyyəti tərəfindən xüsusi diqqət və qayğı göstərilir. Yuxarıda adını çəkdiyimiz, Turizm İnformasiya Mərkəzi bu işlərin bir nömrəli icraçısıdır. Mərkəz tərəfindən yalnız Qəbələ rayonunda deyil, həmçinin fəaliyyət dairəsində olan regionlar haqqında da iş aparılır. Məqsəd daxili turizmi inkişaf etdirmək, yerli və xarici turistlərin bölgəyə cəlb olunması, informasiya texnologiyaları vasitəsilə ölkəmizin bu regionunun turizm potensialı haqqında məlumatları dünyanın hər yerinə çatdırmaqdır.

Hər il iyunun 15-dən Qəbələ rayonunda turizm mövsümünə rəsmi start verilir. Amma maraq və heyranlıq o qədər çoxalıb ki, may ayından rayona turistlərin axınına başlanır. Onun əsrarəngiz təbiətinin qoynunda dincəlmək, Azərbaycan mətbəxinin nemətlərindən dadmaq üçün, Qəbələnin minilliklərin sorağını verən tarix və mədəniyyət abidələrini öyrənmək istəyən turistlərin sayı ilbəil artır. Müsahibim söhbət əsnasında vurğuladı ki, son illərdə Qəbələyə gələn əcnəbi turistlərin sayı da artmaqda davam edir. Onlar əsasən Ərəb və Avropa dövlətlərindən İran, Türkiyə, Rusiya, Hindistan, Pakistan və digər ölkələrdəndir. Rəqəmlərin "dili" ilə desək, Qəbələyə 2015-ci ildə 67,200 yerli, 13,000 əcnəbi və cəmi 80 min 200 nəfər turist gəlmişdirsə, 2016-cı ildə onların ümumi sayı 161014 nəfərə çatmışdır ki, onun da 63,333 nəfərini əcnəbi turistlər təşkil etmişdir. 2017-ci ilin sonuna kimi 250 min turist Qəbələnin qonağı olmuşdur ki, onların da 140 min nəfərini xaricilər təşkil etmişdir. Rəqəmlərin özü Qəbələnin şöhrətinin, ad-sanının dünyanı gəzib dolaşdığını deyir. Bir elə adamı qarşılamaq, rayonun sosial, iqtisadi, mədəni həyatı ilə tanış etmək, əlbəttə, müvafiq qurumlardan, turizm, informasiya mərkəzindən, rayonun rəhbər adamlarından daha böyük və məhsuldar fəallıq tələb edir və qeyd edək ki, bütün bunların hamısı layiqincə həyata keçirilir. Bu gün Qəbələdə 100-dən artıq turizm obyekti fəaliyyət göstərir. Son illərdə rayonda turizm obyektlərinin sayı 5 dəfədən çox artaraq 19-a çatmışdır. Gün ərzində həmin obyektlərdə 2500-ə yaxın qonağa milli, türk və Avropa yeməklərinin daxil olduğu restoran xidmətləri müasir otelçilik, meşə gəzintisi, atla gəzinti, balıq ovu, göldə qayıqla gəzinti, görməli yerlərə, tarixi abidələrə gəzinti



xidmətləri göstərilir. Turistlər bunlarla yanaşı, "Qəbələnd" istirahət və əyləncə mərkəzinin, otellərin nəzdindəki fitnes sağlamlıq mərkəzlərinin, sauna, müasir salonlu türk hamamının, eyni zamanda, diskotekaların xidmətindən də səmərəli istifadə edə bilirlər.

Turizmin inkişafından söhbət açanda bir faktı da xatırlamaq lazımdır. Bu sahəyə qayğının artırılması özəl sektorda turizm istirahət komplekslərinin sayının artırılmasına da sanballı təkan olur. "Qafqaz Resort", "Qafqaz Riverside" , "Qafqaz Tufandağ Monntain Resort", "Qafqaz Sport", "Qafqaz Karvansaray", "Chenot Palace", "Qafqaz City", "Qafqaz Yeddi gözəl" hotelləri, "Qəbələnd" istirahət və əyləncə mərkəzi, "Tufandağ" qış-yay turizm istirahət kompleksi, "Sərin meşə", "Duyma", "Karvan", "Yeddi gözəl", "Sahil", "Selbasar", "Ay işığı", "Xanlar", "Çənlibel", "Soyuq bulaq" otel və istirahət mərkəzləri də son illərdə turizm obyektlərinin sırasına qoşulmuşdur. Bəli, qədim Qəbələ öz tarixini yaşada-yaşada, onu dünyaya tanıda-tanıda günü-gündən gözəlləşir və gözəlləşdikcə də sanki başdan-başa cavanlaşır. İlləri ən əks-sədasını sinəsində yaşada-yaşada ürəklərdə əbədiləşən qocalıqla, bu gün daha uca zirvəyə inamlı və ilhamlı yürüşdə olan gəncliyin vəhdətinin əzəmətidir elə Qəbələni dünya səviyyəsində ağızdan-ağıza, ürəkdən-ürəyə gəzdirən. Qocalıqla gəncliyin inamlı addımlarının təntənəsidir ki, bu gün Qəbələ bir çox dünya səviyyəli tədbirlərə öz mehriban, səmimi, qonaqpərvər qucağını açır. 2009-cu ildən başlayaraq hər il Qəbələ şəhərində beynəlxalq musiqi festivalının keçirilməsi və bu festival çərçivəsində təşkil olunan gənc pianoçuların beynəlxalq müsabiqəsi muğam, klassik, kamera, caz vokal musiqisi konsertlərinin təşkili, dünya əhəmiyyətli bu tədbirlərdə bir çox ölkələrin tanınmış musiqiçilərinin, simfonik və filarmoniya orkestrlərinin çıxışları rayona gələn xarici turistlərin axınına təkan verir.

Möhtəşəm mürəbbə festivalına da artıq 5 ildir Qəbələ ev sahibliyi edir. Mürəbbə festivalı sanki dünya şöhrətli Qəbələni dünya xalqlarına daha da şirinləşdirir, doğmalaşdırır. 2016-cı ildə 10 xarici ölkədən 30 şəhər və rayondan şirinlik festivalına nümayəndə gəlmişdisə, 2017-ci ildə 22 ölkədən 44 şəhər və rayondan olan şirniyyatçılar Qəbələnin qonağı oldular. Bu cür faktlar çoxdur və onların hər birinin Qəbələdə turizmin inkişafında böyük rolu var. Turizmin inkişafı rayonun iqtisadiyyatının gücləndirilməsinə, qəbələlilərin ailə büdcələrinin möhkəmlənməsinə də böyük təsir göstərir.

Qəbələ Turizm və İnformasiya Mərkəzinin direktoru söhbət zamanı ürəkaçan bu faktların daha da artırılması üçün rayonda tarixi, etnoqrafik, piyada, dağ, din, kənd, məcra turizminin, eyni zamanda, ekoturizmin inkişafına da meydan verməsi istiqamətində işlər görülməsinin daha yaxşı nəticələr verə biləcəyini qeyd etdi. Dedi ki, yerli və xarici turistlərin məlumatlandırılması məqsədilə mərkəzin kollektivi bütün günləri fəaliyyət göstərir, mərkəz tərəfindən müxtəlif dillərdə reklam-çap məhsulları hazırlanır, turistlərə informasiya verilməsi ilə əlaqədar internet, telefon və əməkdaşlar tərəfindən ofisimizdə birbaşa xidmət olunur.



Söhbəti hazırladı:
Rasim AMANOV,
"Respublika".

QLOBAL İSTİLƏŞMƏ FİTOSANİTAR TƏDBİRLƏRİN GÜCLƏNDİRİLMƏSİNİ ZƏRURİ EDİR

Son illərdə aqrobiosenozun fitosanitar vəziyyəti əhəmiyyətli dərəcədə dəyişmişdir. Belə ki, yüksələn atmosfer rütubəti və temperatur rejimi, aqrotexniki tədbirlərin vaxtında və düzgün yerinə yetirilməməsi xəstəlik, zərərverici və alaq otlarının əhəmiyyətli dərəcədə çoxalmasına səbəb olmuşdur. Xüsusilə, patogen mikroorqanizmlərin virulentliyi, aqressivliyi artmış, yeni ras və ştamlar əmələ gəlmişdir.

Müxtəlif mənşəli abiotik (fiziki və kimyəvi) və biotik stress amillərinin təsiri altında böyümə və inkişaf üçün əlverişsiz şəraitdə bitkilər xəstələnir, bitkidə patoloji proses başlayır, maddələr mübadiləsi pozulur, patoanatomik, patomorfoloji və patobiokimyəvi proseslərin pozulması və dəyişkənliklər nəticəsində davamlı məhsul istehsalı alınmır, istehsal edilən məhsulun keyfiyyəti pisləşir, dad keyfiyyətləri itir, torpaqda inokulyum yaranır və zaman-zaman bu proses daha da ağırlaşaraq, əkin sahələrində fitosanitar vəziyyəti kəskinləşdirir.

Ümumilikdə, payızlıq buğda sahələrinin fitopatoloji vəziyyəti aparılmış tədqiqatlara görə kafi qiymətləndirilir. Patogenlərin təsiri nəticəsində məhsuldarlığın aşağı düşməsi 10%-dən 20%-dək təşkil edir. Bunun səbəbləri bir-biri ilə əlaqəli dəyişən meteoroloji, aqrotexniki, iqtisadi, sosial şəraitdən ibarətdir.

Rusiya entomologiya cəmiyyətinin XIV qurultayında məlumat verirlər ki, aqrobiosenozların fitosanitar vəziyyəti qlobal istiləşmə və insan amilinin mənfi fəaliyyətləri nəticəsində fəlakət vəziyyətindədir. V.P.Federonko, V.N.Çayka göstərirlər ki, hər il qəbul edilən tədbirlərə baxmayaraq, aqrosenozların vəziyyəti pisləşir, bunun səbəbləri isə çoxdur: elmi əsaslandırılmış növbəli əkinlərə əməl edilməməsi, torpağın minimal və sıfır səviyyəsində becərilməsinin həyata keçirilməməsi, qeyri-balanslaşdırılmış gübrə sisteminin tətbiqi və s.

Q.Serikova və başqaları xəstəliklərlə mübarizənin səmərəliliyini diaqnozun düzgün qoyulmasında görürlər. Onlar qeyd edirlər ki, xəstəlik törədicisi vaxtında və düzgün təyin edildikdə onunla mübarizə də asanlaşır, nəticədə isə fitosanitar vəziyyət yüngülləşir. Başqaları əkinlərdə fitosanitar vəziyyəti optimallaşdırmaq üçün xəstəlik və zərərvericilərə qarşı həssas olmayan sortların yaradılmasını, yəni seleksiya işlərini önə çəkirlər. İ.B.Korotseva, Q.A.Ximiç göstərirlər ki, qabaqkimilərin açıq şəraitdə becərilməsi üçün seleksiyanın kökündə tezyetişkənlik, ətraf mühitin əlverişsiz amillərinə qarşı yüksək davamlılıq, ən zərərli xəstəliklərə qarşı qeyri-həssaslıq dayanır. Bu nöqteyi-nəzəri İ.H.Cəfərov, U.A.Rəhimov və başqa alimlər də dəstəkləyirlər. Çünki bu gün ən davamlı sortlar belə qloballaşan istiləşmə, kataklizmlər, dəyişkən mühit şəraitində davamlılığını itirir, idarəedilməz vəziyyətə düşür.

N.Qusakova qeyd edir ki, bitki mühafizəsi — milli təhlükəsizlik amilidir. Ekspertlərin qiymətləndirmələrinə görə, bir insanın qidasını istehsal etmək üçün 0,3-0,5 hektar kənd təsərrüfatına yararlı torpaq, otlaq sahəsi tələb olunur, daha 0,07-0,09 hektar sahə isə yaşamaq və yol üçün gərəkdir. Bu gün əlimizdə olan texnologiyalar və əkin sahələri ilə 10-17 milyard insanı ərzaqla təmin etmək mümkündür. Lakin elə indi əlimizdə olan məlumatlara görə, yer kürəsinin əhalisinin 8-10%-i və ya 500-800 mln. insan aclıqdan əziyyət çəkir. FAO-nun verdiyi məlumata görə isə dünyada 1,2 mlrd. insan aclıqdan əziyyət çəkir. Müəllif daha sonra yazır ki, Belarus Respublikasının təbii iqlim şəraiti 65 növdən artıq təhlükəli zərərverici, 100 xəstəlik törədici və 300 növ alaq otları üçün əlverişlidir. Bütün bunlara görə də söhbət hər hansı bir təhlükəli zərərverici və ya xəstəlikdən getmir, burada ölkənin ərzaq təhlükəsizliyi məsələsi gündəmdə durur.

Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Bu baxımdan, ölkə əhalisinin ərzaq təhlükəsizliyinin təminatında əsas strateji sahə olan taxılçılığın inkişafı daim diqqət mərkəzində olmalıdır.

Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda Prezident cənab İlham Əliyev demişdir: "...Bu yaxınlarda qida təhlükəsizliyi qurumu yaradılıb. Bu da çox ciddi məsələdir. Bu xüsusi qurum həm idxal olunan qida məhsullarına nəzarət edəcək ki, keyfiyyətsiz, yaxud da insan orqanizmi üçün zərərli mallar gətirilməsin, eyni zamanda, Azərbaycanda daxili bazar və həmçinin ixrac üçün kənd təsərrüfatı və emal məhsulları sağlamlığa tam fayda verəcək səviyyədə istehsal olunsun". Bununla əlaqədar olaraq, aqrar elmin qarşısında duran əsas məsələ vahid əkin sahəsindən daha yüksək miqdarda dən istehsal etməklə əhalinin taxıl və taxıl məhsullarına olan tələbatının tam ödənilməsindən ibarət olmalıdır. Taxılların becərilmə texnologiyasında onlara edilən qulluq işlərinin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi əsas və həlledici amillərdən biridir.

Respublikamızda əkin sahələrinin çoxu riskli və dəyişkən əkinçilik zonasında yerləşir. Dənli bitkilərdən sabit məhsul əldə etmək yalnız, stresslərin (don vurmaq, çürümə, payız və ya erkən yaz quraqlığı və erkən yaz şaxtası (ayazı)) meydana gəlməsinin və patogenlərlə sirayətlənmənin qarşısını alan elmi əsaslandırılmış texnologiyaların daxil edilməsi ilə mümkündür.

Şəki-Zaqatala bölgəsində aparılmış tədqiqatlar payızlıq buğda əkinlərində tətbiq edilən fungisidlərin təsir xüsusiyyətlərini öyrənməyə və xəstəliklərə qarşı düzgün preparat seçiminə imkan verir.

Tədqiqatlar göstərir ki, buğda toxumlarının kök çürümələri və toxumda inkişaf edə biləcək kompleks mikroorqanizmlərdən qorunması məqsədilə toxumların dərmanlanması səbəbli kök çürümə xəstəlikləri zəif inkişaf etmiş, xüsusilə Divident Star və Selest Top fungisidləri ilə dərmanlanmış sahələrdə xəstəliyin inkişafı müşahidə edilməmişdir. Vegetasiya mərhələsində fungisidlərlə işləmə xəstəliklərə qarşı yoluxmanı azaldaraq toxumların mühafizəsinə səbəb olur və bununla yarpaqgövdə xəstəliklərinin infeksion potensialını azaldır, infeksiyaların çoxalma sürətini zəiflədir və beləliklə də, bundan sonrakı mübarizə müddətini uzadır.

Bununla belə, xəstəliklərin qarşısının alınmasında patogenlərə

qarşı nisbətən davamlı rayonlaşdırılmış sortların yetişdirilməsi, növbəli əkinlərə əməl olunması, heriklərin müntəzəm işlənmiş vəziyyətdə saxlanılması, torpağın keyfiyyətli becərilməsi, orqanik və tarazlaşdırılmış mineral gübrələrin daxil edilməsi, səpinin optimal müddəti, səpin norması, toxumların geniş spektrli fungisidlərlə dərmanlanması və s. xüsusi əhəmiyyət kəsb edir.

İbrahim MEHDİYEV,
Şəki Regional Aqrokimya Laboratoriyası Bitkilərin ekspertizası şöbəsinin rəisi, aqrar elmlər üzrə fəlsəfə doktoru.